***ALİ MƏCLİSİN İCLASI***

*13 may 2026-cı il. Saat 11.*

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin*
*birinci müavini **Bəxtiyar Məmmədov** sədrlik edir.*

**Sədrlik edən.** Hörmətli deputatlar!

Hörmətli media nümayəndələri, hamınızı salamlayıram!

Bu gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2026-cı il yaz sessiyasının doqquzuncu iclası keçirilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin iclasında 40 deputat iştirak edir.

| **Qeydiyyat** | (saat 11.02 dəq.) |
|---|---|
| İştirak edir | 40 |
| Yetərsay | 31 |

İclas öz işinə başlamağa səlahiyyətlidir.

Bugünkü iclasın gündəliyinə 2 məsələ daxil edilmiş və sizlərə təqdim olunmuşdur. Xahiş edirəm, gündəliyə münasibət bildirəsiniz.

Hesablayıcı komissiyadan xahiş olunur, səsləri hesablayıb məlumat versin.

| **Səsvermənin nəticələri** | (saat 11.03 dəq.) |
|---|---|
| Lehinə | 40 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 40 |

Nəticə: Qəbul edildi

**Sədrlik edən.** Buyurun, Bəhruz müəllim!

**B.Məmmədov,** *Ali Məclisin Hesablayıcı komissiyasının sədri.*

Hörmətli Bəxtiyar müəllim!

Səsvermədə iştirak edən 40 deputat gündəliyin lehinə səs vermiş, əleyhinə və bitərəf olan yoxdur.

**Sədrlik edən.** Çox sağ olun!

Gündəlik qəbul olundu.

Gündəlikdə duran birinci məsələ "Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin ikinci oxunuşda müzakirəsidir.

Qanun layihəsi 6 may 2026-cı il tarixdə keçirilmiş plenar iclasda müzakirə edilmiş, Ali Məclisin protokol qaydasında qərarı ilə birinci oxunuşda qəbul edilmişdir.

Qanun layihəsinin ikinci oxunuşda müzakirəsi ilə əlaqədar məlumat verməsi üçün söz Hüquq siyasəti komitəsinin sədri Əjdər Əliyevə verilir.

Buyurun, Əjdər müəllim!

**Ə.Əliyev,** *Ali Məclisin Hüquq siyasəti komitəsinin sədri.*

Hörmətli Bəxtiyar müəllim!

Hörmətli sessiya iştirakçıları!

“Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi 6 may 2026-cı il tarixdə Ali Məclisin sessiyasında birinci oxunuşda Daxili Nizamnamənin tələblərinə uyğun olaraq qəbul edilmişdir.

Məlumat üçün qeyd etməliyəm ki, Ali Məclisin Daxili Nizamnaməsinə əsasən birinci oxunuşda qəbul edilmiş qanun layihəsinə dair təklif və iradları aparıcı komitə öyrənir və ümumiləşdirir, layihə üzrə dəyişikliklərə komitənin iclasında baxılır və komitə bu dəyişikliklərlə razı olduqda onları layihənin mətninə daxil edir. Sonda yenidən işlənilmiş qanun layihəsi ikinci oxunuşda baxılmaq məqsədilə Ali Məclisin iclasının gündəliyinə salınmaq üçün Ali Məclisin sədrinə göndərilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinin layihənin ikinci oxunuşa hazırlanması ilə bağlı keçirilən 12 may 2026-cı il tarixli iclasında deputatlar tərəfindən “Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi ilə bağlı hər hansı təklif və ya irad bildirilməmişdir. Bu səbəbdən komitə protokol qaydasında qəbul etdiyi qərara əsasən layihəni ikinci oxunuşda baxılmaq məqsədilə Ali Məclisin iclasının gündəliyinə salınmaq üçün Ali Məclisin sədrinə göndərmişdir.

“Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinə ikinci oxunuşda baxıla bilər.

Sağ olun!

**Sədrlik edən.** Sağ olun, Əjdər müəllim!

Hörmətli deputatlar!

Qanun layihəsi ilə əlaqədar deputatlardan çıxış etmək istəyən və ya əlavə təklifi olan varmı?

Buyurun, Xəzəngül xanım!

**X.Orucova.** Hörmətli Bəxtiyar müəllim!

Hörmətli deputatlar!

Təklif olunan dəyişikliklər seçki qanunvericiliyinin daha dəqiq və müasir hüquqi mexanizmlər əsasında tənzimlənməsi, səlahiyyət bölgüsünün daha aydın müəyyən olunması və seçki institutunun təkmilləşdirilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Qanun layihəsində seçki hüququnun prinsipləri ilə bağlı müddəaların dəqiqləşdirilməsi hüquq normalarının tətbiqində vahid yanaşmanın təmin olunmasına xidmət edir və tətbiq zamanı yarana biləcək qeyri-müəyyən halların qarşısını alır. Seçki komissiyasının formalaşdırılması qaydasında edilən dəyişiklik də institusional baxımdan əhəmiyyətlidir. Mərkəzi Seçki Komissiyası üzvlərinin irəli sürülməsi səlahiyyətinin Ali Məclisin sədrinə aid edilməsi qanunverici orqanın bu prosesdə iştirakını daha da artırır. Eyni zamanda, layihədə müharibə şəraitində seçkilərin keçirilməsi mümkün olmadıqda məsələyə Ali Məhkəmə tərəfindən baxılması ilə bağlı müddəanın əks olunması hüquqi nəzarət mexanizmlərinin gücləndirilməsi baxımından əhəmiyyətlidir.

Hesab edirəm ki, təqdim olunan dəyişikliklər seçki qanunvericiliyinin daha da təkmilləşdirilməsinə və hüquqi mexanizmlərin effektivliyinin artırılmasına xidmət edəcəkdir. Bu baxımdan qanun layihəsini dəstəkləyir, deputat həmkarlarımı da layihənin lehinə səs verməyə dəvət edirəm.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Xəzəngül xanım!

Əlavə çıxış etmək istəyən varmı?

Buyurun, Mövlan müəllim!

**M.Məmmədov.** Hörmətli Bəxtiyar müəllim!

Hörmətli iclas iştirakçıları!

Bu gün müzakirəyə çıxarılan qanun layihəsi qanunvericiliyin təkmilləşdirilməsi və mövcud hüquqi normaların uyğunlaşdırılması baxımından mühüm əhəmiyyət daşıyır. Naxçıvan Muxtar Respublikası Konstitusiyasında edilmiş dəyişikliklərdən sonra seçkilərlə və Ali Məclisin fəaliyyəti ilə bağlı bəzi məsələlərin yenidən tənzimlənməsi zərurəti yaranmışdır.

“Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi seçki prosesinin hüquqi əsaslarının dəqiqləşdirilməsinə və qanunvericiliyin yeni tələblərə uyğunlaşdırılmasına xidmət edir. Bu dəyişikliklər seçkilərin təyin olunması və keçirilməsi ilə bağlı məsələlərin daha aydın tənzimlənməsinə imkan yaradacaqdır.

Diqqətiniz üçün minnətdaram.

**Sədrlik edən.** Sağ olun, Mövlan müəllim!

Deputatlardan əlavə çıxış etmək istəyən varmı?

Yoxdur.

Hörmətli deputatlar!

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 20.3-cü maddəsinə əsasən ikinci oxunuşda müzakirə edilən qanun layihəsinin əsas kimi qəbul edilməsi barədə protokol qaydasında qərar qəbul edilməlidir.

Deputatlardan kim “Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin əsas kimi qəbul edilməsinə tərəfdardırsa, xahiş edirəm səs versin.

Hesablayıcı komissiyadan xahiş olunur, səsləri hesablayıb məlumat versin.

| **Səsvermənin nəticələri** | (saat 11.09 dəq.) |
|---|---|
| Lehinə | 40 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 40 |

Nəticə: Qəbul edildi

**Sədrlik edən.** Buyurun, Bəhruz müəllim!

**B.Məmmədov,** *Ali Məclisin Hesablayıcı komissiyasının sədri.*

Hörmətli Bəxtiyar müəllim!

“Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin ikinci oxunuşda əsas kimi qəbul edilməsi ilə bağlı səsvermədə iştirak edən 40 deputat lehinə səs vermiş, əleyhinə və bitərəf olan yoxdur.

**Sədrlik edən.** Çox sağ olun!

Beləliklə, qanun layihəsi əsas kimi qəbul edildi.

Daxili Nizamnamənin 20-ci maddəsinə əsasən qanun layihəsi ikinci oxunuşda qəbul edilir və redaktə edilmək üçün aparıcı komitəyə qaytarılır.

Deputatlardan kim “Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin ikinci oxunuşda qəbul olunmasına tərəfdardırsa, xahiş edirəm səs versin.

Hesablayıcı komissiyadan xahiş olunur, səsləri hesablayıb məlumat versin.

| **Səsvermənin nəticələri** | (saat 11.10 dəq.) |
|---|---|
| Lehinə | 40 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 40 |

Nəticə: Qəbul edildi

**Sədrlik edən.** Buyurun, Bəhruz müəllim!

**B.Məmmədov,** *Ali Məclisin Hesablayıcı komissiyasının sədri.*

Hörmətli Bəxtiyar müəllim!

Qanun layihəsinin ikinci oxunuşu ilə bağlı səsvermədə iştirak edən 40 deputat lehinə səs vermiş, əleyhinə və bitərəf olan yoxdur.

**Sədrlik edən.** Çox sağ olun!

Beləliklə, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Gündəlikdə duran ikinci məsələ “Naxçıvan Muxtar Respublikasının 2023-cü il 1 avqust tarixli 26-VIQN nömrəli Qanunu ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsi”ndə dəyişiklik edilməsi haqqında” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin birinci oxunuşda müzakirəsidir.

Bildiyimiz kimi, “Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklərin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2026-cı il 2 fevral tarixli 340-VIIKQD nömrəli Konstitusiya Qanununa və “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə etimad məsələsinin həll edilməsi hüququnun əlavə təminatları haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununa uyğun olaraq Ali Məclisin Daxili Nizamnaməsində dəyişiklik edilməsi zərurəti yaranmış, bununla bağlı qanun layihəsi hazırlanmış və deputatlara təqdim olunmuşdur.

Layihə Hüquq siyasəti komitəsinin 12 may 2026-cı il tarixli iclasında komitənin sədri, sədr müavini və üzvlərinin, həmçinin Ali Məclis Aparatının nümayəndələrinin iştirakı ilə müzakirə edilmişdir.

Qanun layihəsi barədə məlumat vermək və komitənin rəyini bildirmək üçün söz Hüquq siyasəti komitəsinin sədri Əjdər Əliyevə verilir.

Buyurun, Əjdər müəllim!

**Ə.Əliyev,** *Ali Məclisin Hüquq siyasəti komitəsinin sədri.*

Hörmətli Bəxtiyar müəllim!

Hörmətli sessiya iştirakçıları!

"Naxçıvan Muxtar Respublikasının 2023-cü il 1 avqust tarixli 26-VIQN nömrəli Qanunu ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsində 8 maddə üzrə dəyişikliklərin edilməsi nəzərdə tutulur.

Qanun layihəsinin hazırlanmasında məqsəd Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına və "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə etimad məsələsinin həll edilməsi hüququnun əlavə təminatları haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun tələblərinə uyğunlaşdırılmasıdır.

Qanun layihəsinə əsasən 1.7-ci və 4.7-ci maddələrdə ismin müvafiq hallarında "qərar" sözü ismin müvafiq hallarında "sərəncam" sözü ilə əvəz edilir.

1-ci maddədə Ali Məclisin binasında xüsusi rejimin Ali Məclisin sədri tərəfindən müəyyən edilməsi ilə bağlı müddəa öz əksini tapmışdır. Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında və Ali Məclis sədrinin qəbul etdiyi normativ hüquqi aktlarda edilmiş dəyişikliklərə uyğun olaraq bu proses artıq qərarla deyil, sərəncamla icra ediləcəkdir.

4.7-ci maddədə isə karantin rejiminin tətbiqi, habelə sanitariya-epidemioloji hallarda komitə və plenar iclasların videokonfrans formatında keçirilməsi ilə bağlı qərarların artıq qərarla deyil, sərəncamla qəbul ediləcəyi qeyd olunub.

2-ci maddənin mətni 2.1-ci maddə hesab edilir və aşağıdakı məzmunda 2.2-ci və 2.3-cü maddələr əlavə edilir:

"2.2. Ali Məclisə seçkilərdən sonra martın 10-dək onun 31 deputatının səlahiyyətləri təsdiq edilməzsə, Ali Məclisin ilk iclasının keçirilmə vaxtını Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi müəyyən edir.

2.3. Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi Ali Məclisin 31-ci deputatının seçildiyini martın 10-dan sonra təsdiq edərsə, həmin iclasda yeni seçilmiş Ali Məclisin ilk iclasının keçirilməsi vaxtını da təyin etməlidir.".

Qeyd etmək lazımdır ki, əvvəlki redaksiyada Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 18-ci maddəsində yalnız 31 deputatın səlahiyyətlərinin təsdiq edildiyi halda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ilk iclasının həmin təsdiqdən sonra bir həftədən gec olmayaraq çağırılması nəzərdə tutulurdu. Lakin mart ayının 10-dək 31 deputatın səlahiyyətlərinin təsdiq edilməməsi, eləcə də martın 10-dan sonra 31 deputatın səlahiyyətlərinin təsdiq olunması hallarında prosedurun necə həyata keçiriləcəyi ilə bağlı hər hansı hüquqi tənzimləmə mövcud deyildi. Təklif olunan dəyişikliklər məhz bu hüquqi boşluğun aradan qaldırılmasına xidmət edir.

Belə ki, martın 10-dək 31 deputatın səlahiyyətləri təsdiq edilmədiyi halda, Ali Məclisin ilk iclasının keçirilmə vaxtı Ali Məhkəmə tərəfindən müəyyən ediləcəkdir. Eyni zamanda, martın 10-dan sonra 31 deputatın səlahiyyətləri təsdiq edildikdə, həmin təsdiq Ali Məhkəmənin Rəyasət Heyətinin iclasında rəsmiləşdirildikdən sonra Ali Məclisin ilk iclasının keçiriləcəyi gün də Ali Məhkəmə tərəfindən müəyyən olunmalıdır.

Layihəyə əsasən 4.2-ci maddədə "Naxçıvan Muxtar Respublikası Ali vəzifəli şəxsinin" sözləri "Azərbaycan Respublikası Prezidentinin, yaxud Azərbaycan Respublikası Milli Məclisinin" sözləri ilə əvəz edilir.

Təklif edilən dəyişikliklərə əsasən, 16.9.2-ci maddədən "Naxçıvan Muxtar Respublikasının Ali vəzifəli şəxsi ilə və ya onun tapşırığı ilə" sözləri çıxarılır, 23.1-ci maddəyə birinci halda "il" sözündən sonra "martın 31-dək" sözləri əlavə edilir, 24-cü maddə isə ləğv olunur.

16.9.2-ci maddəyə edilən dəyişiklik qanun layihələrinin razılaşdırılması proseduru ilə bağlıdır. Həmin maddədə dövlət vəsaitlərinin ixtisar edilməsinə, xərclərin yaranmasına və ya artmasına səbəb olan qanun layihələrinin razılaşdırılması məsələsi tənzimlənir. Əvvəlki redaksiyada bu hallarda razılaşdırmanı həyata keçirəcək subyekt Naxçıvan Muxtar Respublikasının Ali vəzifəli şəxsi tərəfindən müəyyən edilirdi. Artıq təklif olunan dəyişikliklə həmin müddəa maddədən çıxarılır.

23.1-ci maddəyə edilən dəyişiklik Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin illik hesabatının təqdim edilməsi ilə bağlıdır. Belə ki, artıq qəbul edilmiş "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə etimad məsələsinin həll edilməsi hüququnun əlavə təminatları haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda hesabatın təqdim olunma müddəti konkret olaraq martın 31-dək müəyyən edilmişdir. Bu səbəbdən də Daxili Nizamnamədə də həmin dəyişiklik edilir və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin hesabatının hər il martın 31-dək təqdim olunması nəzərdə tutulur.

24-cü maddənin ləğvi isə Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) illik məruzəsi ilə bağlıdır. Həmin qanun qüvvədən düşdüyündən və Naxçıvan Muxtar Respublikasında bu təsisatın mövcudluğu üçün hüquqi əsas qalmadığından Daxili Nizamnamənin 24-cü maddəsi tamamilə ləğv edilir.

36.1.2-ci maddə aşağıdakı redaksiyada verilir:

"36.1.2. Ali Məclisin növbədənkənar sessiyalarını Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Milli Məclisinin və ya Ali Məclisin 16 deputatının tələbi əsasında çağırır;";

Əvvəlki redaksiyaya əsasən, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin növbədənkənar sessiyası Ali Məclis sədrinin təşəbbüsü ilə və ya Ali Məclisin ən azı 16 deputatının tələbi əsasında çağırılırdı. Təklif edilən dəyişikliklə deputatların sayı ilə bağlı tələb əvvəlki qaydada saxlanılır. Bununla yanaşı, Azərbaycan Respublikasının Prezidenti və Azərbaycan Respublikasının Milli Məclisi də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin növbədənkənar sessiyasının çağırılması səlahiyyətinə malik subyektlər sırasına daxil edilir.

36.2-ci maddədə "qərarlar" sözü "sərəncamlar" sözü ilə əvəz edilir.

Bu dəyişiklik Naxçıvan Muxtar Respublikası Konstitusiyasında edilmiş dəyişikliklərə uyğunlaşdırma məqsədi daşıyır.

Həmçinin dəyşikliklə Daxili Nizamnaməyə aşağıdakı məzmunda 28-1-ci maddə əlavə edilir:

“Maddə 28-1. **Ali Məclisin buraxılması**

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 28-1-ci maddəsinin I hissəsinə əsasən Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 31 deputatın tələbi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi tərəfindən və ya Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 24-cü və 25-ci maddələrində, 26-cı maddəsinin II–V hissələrində və 27-ci maddəsində göstərilən vəzifələrini aradan qaldırıla bilməyən səbəblər üzündən icra etmədikdə Azərbaycan Respublikasının Prezidenti tərəfindən buraxılır.”.

“Naxçıvan Muxtar Respublikasının 2023-cü il 1 avqust tarixli 26-VIQN nömrəli Qanunu ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsi”ndə dəyişiklik edilməsi haqqında” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinə daxil olmuş, komitənin 12 may 2026-cı il tarixdə keçirilən iclasında komitənin sədri, sədr müavini və üzvlərinin, həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının nümayəndələrinin iştirakı ilə geniş müzakirə edilmişdir. Komitə iclasında qanun layihəsi barədə ətraflı məlumat verilmiş və iclas iştirakçılarının müzakirəsinə təqdim olunmuşdur.

“Naxçıvan Muxtar Respublikası Ali Məclisinin komitələri haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun 6.1-ci maddəsinə əsasən, komitə müzakirə etdiyi məsələlərə dair qərar və rəylər qəbul edir. Buna müvafiq olaraq komitə iclasında rəy layihəsi hazırlanmış, səsvermə keçirilmiş və rəy yekdilliklə qəbul edilmişdir.

İcazənizlə, rəyi diqqətinizə çatdırıram.

Yeddinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinin rəyi.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinə daxil olmuş “Naxçıvan Muxtar Respublikasının 2023-cü il 1 avqust tarixli 26-VIQN nömrəli Qanunu ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsi”ndə dəyişiklik edilməsi haqqında” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi 10 mart 2026-cı il tarixdə qüvvəyə minmiş “Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklərin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununun və “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə etimad məsələsinin həll edilməsi hüququnun əlavə təminatları haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun tələblərinə əsasən hazırlanmışdır.

“Naxçıvan Muxtar Respublikasının 2023-cü il 1 avqust tarixli 26-VIQN nömrəli Qanunu ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsi”ndə dəyişiklik edilməsi haqqında” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi komitə üzvlərinə paylanılmış, komitənin 12 may 2026-cı il tarixli iclasında komitənin sədri, sədrin müavini və üzvlərinin, həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının nümayəndələrinin iştirakı ilə müzakirə olunmuşdur. Qanun layihəsi “Normativ hüquqi aktlar haqqında” Naxçıvan Muxtar Respublikasının 2011-ci il 19 iyul tarixli 6-IVQN nömrəli Qanununun tələblərinə uyğun hazırlanmışdır.

Yuxarıda qeyd edilənləri və “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin komitələri haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun 6.2-ci maddəsini nəzərə alaraq Ali Məclisin Hüquq siyasəti komitəsi qeyd edir ki, qanun layihəsi Ali Məclisin iclasının gündəliyinə daxil edilmək üçün təqdim oluna bilər.

Sağ olun!

**Sədrlik edən.** Sağ olun, Əjdər müəllim!

Qanun layihəsi ilə əlaqədar deputatlardan çıxış etmək istəyən və ya əlavə təklifi olan varmı?

Buyurun, Emin müəllim!

**E.Şıxəliyev.** Hörmətli Bəxtiyar müəllim!

Hörmətli deputatlar!

Müzakirəyə təqdim olunan "Naxçıvan Muxtar Respublikasının 2023-cü il 1 avqust tarixli 26-VIQN nömrəli Qanunu ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi Ali Məclisin fəaliyyətinin müasir hüquqi tələblərə uyğun təkmilləşdirilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Layihədə nəzərdə tutulan dəyişikliklər qanunvericilik fəaliyyətinin daha çevik, səmərəli və hüquqi baxımdan dəqiq mexanizmlərlə həyata keçirilməsinə xidmət edir.

Qanun layihəsində Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının konstitusion müddəalarına, eləcə də ölkəmizdə həyata keçirilən idarəçilik islahatlarına uyğun olaraq bir sıra prosedur məsələlərinin dəqiqləşdirilməsi nəzərdə tutulur. Xüsusilə növbədənkənar sessiyaların çağırılması, qapalı iclasların keçirilməsi ilə bağlı müddəaların konkretləşdirilməsi hüquqi müəyyənliyin artırılması baxımından əhəmiyyətlidir.

Hesab edirəm ki, təqdim olunan layihə parlament fəaliyyətinin daha səmərəli təşkilinə və qanunvericilik prosesinin təkmilləşdirilməsinə xidmət edən aktual və zəruri dəyişiklikləri özündə ehtiva edir.

Bu baxımdan qanun layihəsini dəstəkləyir və həmkarlarımı layihənin lehinə səs verməyə çağırıram.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Emin müəllim!

Əlavə çıxış etmək istəyən varmı?

Buyurun, Mübariz müəllim!

**M.Bayramov,** *Ali Məclisin İqtisadi siyasət komitəsinin sədri.*

Hörmətli Bəxtiyar müəllim!

Hörmətli deputatlar və iclas iştikatçıları!

Müzakirəyə təqdim olunan qanun layihəsi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin təkmilləşdirilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Layihədə nəzərdə tutulan dəyişikliklər Ali Məclisin fəaliyyət mexanizminin daha çevik və hüquqi əsaslar üzərində qurulmasına xidmət edir.

Daxili Nizamnaməyə əlavə edilən yeni müddəaya əsasən, seçkilərdən sonra müəyyən edilmiş müddətdə 31 deputatın səlahiyyəti təsdiq olunmadıqda ilk iclasın çağırılması səlahiyyətinin Ali Məhkəməyə verilməsi parlament fəaliyyətinin fasiləsizliyinin təmin olunması baxımından vacib hüquqi mexanizmdir.

Layihədə diqqət çəkən məsələlərdən biri də Ali Məclisin buraxılması ilə bağlı müddəaların müəyyən edilməsidir. Təklif olunan dəyişikliklərə əsasən, Ali Məclis öz fəaliyyətini həyata keçirə bilmədikdə deputatların müvafiq çoxluğunun müraciəti əsasında və ya Azərbaycan Respublikasının Prezidenti tərəfindən buraxıla bilər. Bu yanaşma idarəetmədə hüquqi mexanizmlərin daha aydın müəyyənləşdirilməsinə xidmət edir. Eyni zamanda, növbədənkənar sessiyaların çağırılması prosedurunun daha çevik formada tənzimlənməsi də qanunvericilik fəaliyyətinin operativliyini artıracaqdır.

Hesab edirəm ki, təqdim olunan dəyişikliklər Ali Məclisin fəaliyyətinin daha səmərəli təşkilinə və parlamentarizm ənənələrinin inkişafına öz töhfəsini verəcəkdir.

Bu baxımdan qanun layihəsini dəstəkləyir, həmkarlarımı da layihənin lehinə səs verməyə çağırıram.

Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun, Mübariz müəllim!

Başqa çıxış etmək istəyən və ya əlavə təklifi olan varmı?

Buyurun, Mövlan müəllim.

**M.Məmmədov.** Hörmətli Bəxtiyar müəllim!

Hörmətli iclas iştirakçıları!

Gündəlikdə müzakirəyə təqdim olunan bu məsələ ilə də bağlı fikirlərimi bildirmək istərdim. Qeyd etmək lazımdır ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsində dəyişiklik edilməsi Ali Məclisin fəaliyyətinin daha səmərəli təşkilinə, iclasların və qərar qəbuletmə prosedurlarının mövcud hüquqi dəyişikliklərə uyğunlaşdırılmasına xidmət edir. Bu isə qanunvericilik prosesində ardıcıllığın və sistemliliyin təmin olunmasına müsbət təsir göstərəcəkdir.

Hesab edirəm ki, təqdim olunan qanun layihələrinin qəbul edilməsi dövlət idarəçiliyinin və hüquqi mexanizmlərin daha da təkmilləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Diqqətinizə görə minnətdaram.

**Sədrlik edən.** Sağ olun, Mövlan müəllim!

Deputatlardan əlavə çıxış etmək istəyən varmı?

Yoxdur.

Hörmətli deputatlar!

Ali Məclisin Daxili Nizamnaməsinin 18.1-ci maddəsinə əsasən Ali Məclisdə uyğunlaşdırma məqsədi ilə hazırlanmış, həmçinin texniki xarakter daşıyan dəyişiklikləri nəzərdə tutan qanun layihələrinə bir oxunuşda baxılır.

Deputatlardan kim "Naxçıvan Muxtar Respublikasının 2023-cü il 1 avqust tarixli 26-VIQN nömrəli Qanunu ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin qəbul olunmasına tərəfdardırsa, xahiş edirəm səs versin.

Hesablayıcı komissiyadan xahiş olunur, səsləri hesablayıb məlumat versin.

| **Səsvermənin nəticələri** | (saat 11.25 dəq.) |
|---|---|
| Lehinə | 40 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 40 |

Nəticə: Qəbul edildi

**Sədrlik edən.** Buyurun, Bəhruz müəllim!

**B.Məmmədov,** *Ali Məclisin Hesablayıcı komissiyasının sədri.*

Hörmətli Bəxtiyar müəllim!

Səsvermədə iştirak edən 40 deputat "Naxçıvan Muxtar Respublikasının 2023-cü il 1 avqust tarixli 26-VIQN nömrəli Qanunu ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin lehinə səs vermiş, əleyhinə və bitərəf olan yoxdur.

**Sədrlik edən.** Çox sağ olun!

Beləliklə, qanun qəbul edildi.

Hörmətli həmkarlar!

Bununla da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2026-cı il yaz sessiyasının növbəti iclası öz işini başa çatdırdı.

Sağ olun!